**UOT 81' 41; 801.7**
**https://doi.org/10.59849/2218-4783.2025.2.161**

**CƏMİLƏ MƏHƏRRƏMOVA**

# QƏRBİ AZƏRBAYCAN ETNOOYKONİMLƏRİNİN ETİMOLOGİYASI (ARALIQ, XANLIQLAR, HORS, İTQIRAN)

*Məqalədə tayfa adları ilə bağlı yaranan Qərbi Azərbaycan ərazisinə daxil olan toponimlərdən və bu toponimlərin etnolinqvistik təhlilindən bəhs olunur. Tayfa adları ilə bağlı yaranan toponimlər etnotoponim hesab olunur. Etnonim səciyyəli toponimlərin yaranmasında qədim türk tayfa, nəsil, xalq, tirə, qəbilə adları əsas rol oynayır. Ərazidə mövcud olan türk mənşəli tayfa adları ilə sıx bağlı olan bu toponimlərin, xüsusilə də oykonimlərin qədim mənbələrdə mövcudluğu araşdırılmış və bu faktlar məqalədə öz əksini tapmışdır. Burada Qərbi Azərbaycan ərazisinə daxil olan türk mənşəli tayfa adları ilə bağlı yaranan-etnonim səciyyəli toponimlərdən bir neçəsinin (Aralıq, Xanlıqlar, Hors, İtqıran) etnolinqvistik təhlili aparılmışdır.*

**Açar sözlər:** *Qərbi Azərbaycan, etnooikonim, Aralıq, Xanlıqlar, Xors, İtqıran.*

**Giriş.** Son dövrlər Qərbi Azərbaycan toponimlərinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Bu, Azərbaycanda gedən bir sıra mədəni-siyasi məsələlərlə əlaqədar mühüm işlərdən biri kimi nəzərdən keçirilir. Bu məqsədlə Qərbi Azərbaycanın qədim yer adlarını yenidən tədqiq etmək, bu adların yenidən özünə qaytarılması üzərində mühüm işlər görülür. Ona görə də tarixi yer adlarının tədqiqi mühüm əhəmiyyət kəsb edir. Müəyyən dövr ərzində bir sıra siyasi səbəblərlə əlaqədar, tarixi yerlərimiz düşmən tapdağı altında qaldığına görə, Qərbi Azərbaycanın bir sıra yer adları dəyişdirilərək başqa adlarla adlandırılmışdır. Buna görə bu toponimlərin yenidən öyrənilməsi, qədim yer adlarımızın tədqiq olunaraq ictimaiyyətə təqdim olunması aktual məsələ kimi irəli sürülür. Qərbi Azərbaycan toponimlərinin tarixən türk mənşəli və özünü folklorda da mühafizə etməsini müşahidə edirik. Belə adlar özünü daha çox çay, dağ, kənd adlarında üzə çıxarır.

Tarixi yaddaşımızın bərpasına və qorunaraq gələcək nəsillərə çatdırılmasına hər zaman böyük önəm verən Azərbaycan Prezidenti İlham Əliyev 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən deyib: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb". Adında milli kimliyini ehtiva edən qədim Azərbaycan toponimlərindən, indiki Ermənistan ərazisində mövcud olan bir neçə məntəqə adının etimologiyası tədqiqata cəlb olunmuşdur.

**Aralıq, Xanlıqlar, Hors, İtqıran kəndlərinin etnolinqvistik təhlili.**

Qərbi Azərbaycan torpaqları qədim zamanlardan müxtəlif xalqların, tayfaların, qəbilə və nəsillərin yaşayış məskəni olduğu üçün bu xüsusiyyətlər bölgənin topononimlərinə öz təsirini göstərmişdir. Bu topononimlər dilimizdə mövcud olan söz qrupları əsasında yaranmış, məna əsasına görə müxtəlif yollarla formalaşmışdır. Toponimlərin bir çox hissəsi uzaq tarixi keçmişimizlə, bir qismi isə son dövrlərə aid olan dil faktlarıdır. Coğrafi obyektlərə ad verərkən obyektlərin müəyyən əlamət və xüsusiyyətləri nəzərə alınır. Adlandırma daha çox hər hansı şəxs, tayfa, tayfa birləşmələri, tirə, qəbilə və sülalə adları əsasında formalaşmışdır. Bu üsulla yaranan coğrafi adlar etnotoponimlər hesab olunur. Qərbi Azərbaycan torpaqlarında da xeyli sayda tayfa adları ilə bağlı toponim mövcuddur. Buna Aralıq, Xanlıqlar, Hors, İtqıran və s. kimi oykonimlər daxildir. İstənilən hər hansı bir

ərazi adının yaranmasında müxtəlif amillər yer alır. Burada ən çox təsadüf olunan tayfa birliklərinə məxsus adlardır ki, hər bir tayfanın yaşadığı ərazi onun adı ilə adlanır.

**Aralıq kəndi.** XIX əsr rus elmi mənbələrində İrəvan əyalətinin Şərur mahalında Aralıx-Kəlbəli xan, Aralıx Məhəmmədəli bəy [14, s. 488] adlı kənd adları qeydə alınmışdır. XX əsrin əvvəllərinə aid rus elmi mənbələrində Şərur-Dərələyəz qəzasında Aralıx-bəy, Aralıx-xan kəndləri qeyd olunmuşdur [10, s. 52]. Ümumiyyətlə, bu dövr mənbələrində Azərbaycanın müxtəlif ərazilərində Aralıx adlı bir çox kənd haqqında məlumat vardır [10, s. 51-52]. Aralıq, Yuxarı Aralıq, Aşağı Aralıq kənd adlarına 1590-cı il, 1727-ci il mənbələrində də rast gəlinir [2, s. 103]. Hazırda Şərur rayonunda Aralıq kəndi mövcuddur. Bu kənd adı bir neçə dəfə dəyişdirilsə də, sonradan bərpa edilmişdir [2, s. 103-104]. F.Qan yer adının tatar mənşəli aralıq – "məsafə, sərhəd, ortalıq" sözü əsasında meydana gəldiyini qeyd edir və adın "sərhəd yaxınlığında yerləşən kənd" mənası ifadə etdiyini yazır [7, s. 12]. Digər rus tədqiqatçısı K.N.Smirnov Aralıq adını "ara" sözü ilə bağlayır [13, s. 50]. Prof. A.Bağırov Aralığın qədim toponim olduğunu yazır. O, Aralıq yer adını XVI əsrdə mövcud olmuş Aralıq nahiyəsinin adı ilə bağlayır və qeyd edir ki, bu nahiyə böyük bir eli təmsil etmişdir [2, s. 104]. Aralıq türk dillərində "ara, iki punkt arasındakı məsafə, orta" mənasında işlənən sözdür. Bu sözün buryat və monqol dillərindəki mənası da maraq doğurur. Belə ki, bu dillərdə ar, ara – "şimal, arxa tərəf, dağın şimal tərəfi" mənalarında toponimlərin tərkibində işlənməkdədir. Çox güman ki, bu söz toponimlərin tərkibində də ərazinin yerləşdiyi coğrafi istiqaməti bildirir. Yakutiya, Sibir, Buryatiyada Arqa-Alas, Arqa-Sala, Ara-Moqotuy, Ara-Xanqay oymağı və s. kimi yer adlarına rast gəlinir [8, s. 52]. Hal-hazırda kəndlərin adı müvafiq olaraq Aşağı Aralıq və Yuxarı Aralıqdır. Deməli sovet Rusiyası tərəfindən həm Qərbi Azərbaycanda yerləşən Aralıq kəndi, həm də Şərur rayonu ərazisindəki Aralıq kəndlərinin adları dəyişdirilmişdir. Şübhəsiz ki, bu da kəndin adının türk mənşəli etnotoponim olması ilə bağlı idi. Aralıq toponiminin etimologiyasına nəzər yetirsək, bəzi tədqiqatçılar adı müasir dilimizdəki "orta" sözü ilə bağlayaraq, iki kəndin arasında yerləşən yer kimi izah etsə də Firudin Rzayev bu adı etnooykonim kimi qiymətləndirərək Aral türklərinin adı ilə bağlayır. Alim qeyd edir ki, Aralıq sözünün -ıq şəkilçisi Azərbaycan dilində feillərdən isim (bacar-ıq, cız-ıq və s.) və sifət (aç-ıq, yan-ıq və s.) düzəldən şəkilçi kimi işlənir. Bu halda "Aral" kök olaraq qalır və bu tərkib türk xalqları ərazisində Aral gölü və şəhəri (Qazaxıstan), Ural dağı və çayı, Aralgöl (Axtyubin əyaləti), Aralsor gölü (Ural çayı və Yeni Kazank şəhərindən qərbə) adlarında mövcuddur[11, s. 182].

**Hors kəndi.** XIX əsrdə Naxçıvan əyalətinin Dərələyəz mahalına [15, s. 506], XX əsrin əvvəllərində İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasına aid kənd olmuşdur [10, s. 100]. İndi Ermənistanda Keşişkənd (Yeğeqnadzor) rayonunda kənddir. 1919-cu ilin sonlarında ermənilərin təcavüzü nəticəsində kənd əhalisi buradan qovulmuş, kəndə İrandan köçürülən ermənilər yerləşdirilmişdir. İkinci dəfə, 1988-ci ilin noyabr ayında azərbaycanlılar Ermənistan dövləti tərəfindən yenidən qovulmuşdur. İndi burada ermənilər yaşayır. Hors dərəsindən axan çayın yanında yerləşir [3, s. 297]. XIX əsrdə Ordubad əyalətinin Biləv mahalına aid Hurs kənd adı qeydə alınmışdır [14, s. 506]. Bu kənd adları arasında fonetik oxşarlıq onların eyni sözlə bağlı yaranmasından irəli gələ bilər. Kəndin adı tarixi mənbələrdə ilk dəfə X əsrdə xatırlanır [3, s. 297]. 1728-ci ilə aid "İrəvan əyalətinin icmal dəftəri"ndə Xors kimi qeyd edilmişdir [9, s. 59]. İ.Bayramov toponimin *xors/hors* türk etnonimi əsasında əmələ gəldiyini yazır. Tədqiqatçı qeyd edir ki, Azərbaycan dilində q~x~h səs əvəzlənməsi qanunauyğun haldır, xors (hors) etnoniminə *qors, xoros, xurs* formalarında da rast gəlinir [3, s. 297]. XX əsr rus müəllifi K.N.Smirnov yer adının fars mənşəli *xırs* – "ayı" sözü ilə bağlı yarandığını ehtimal edir [13, s. 53]. Tədqiqatçılar Ordubad rayonundakı Xurs kənd adını izah edərkən onun *gorus* etnoniminin variantı ola biləcəyi haqqında fikir irəli sürmüşlər [1, s. 360]. Hors və Xurs sözlərini eynimənşəli hesab etsək, onda Hors oykoniminin də *gorus* sözü əsasında yarandığını ehtimal etmək olar.

**Xanlıqlar kəndi.** XIX əsrdə İrəvan əyalətinin Şərur mahalına [14, s. 506], XX əsrin əvvəllərində Şərur-Dərələyəz qəzasına aid kənd olmuşdur [10, s. 290]. Kənd adı mənbələrdə Xanlıxlar, Xanuxlar şəklində qeydə alınmışdır [14, s. 506; 10, s. 290]. Hazırda Şərur rayonunda da eyniadlı

kənd mövcuddur. XX əsr rus müəllifi K.N.Smirnov bu kənddə Sultan İbrahim imamzadəsinin olduğunu və bu yerin də xalq arasında Əshabul Kəf kimi müqəddəs ziyarətgah sayıldığını qeyd edir. Deyilənlərə görə, burada imamzadənin üstünə dayanmadan 2-3 gün işıq yağışı yağır [13, s. 45]. K.N.Smirnov kənd adının Xanuxlar və ya Xanəgahlar adlandığını da qeyd edir [13, s. 46]. Müəllif burada Şərur xanlarının qədim iqamətgahının olduğunu yazır [13, s. 53]. Budaqov və Q.Qeybullayevin fikirlərinə görə, Xanlıqlar "xana məxsus, xanlıq kəndi" mənasını ifadə edir [6, s. 68]. Digər mənbədə qeyd olunur ki, yaşayış məntəqəsi vaxtilə Naxçıvan xanlarına məxsus Xanlıq adlanan mülk yerinin ərazisində salındığı üçün belə adlandırılmışdır [1, s. 340]. F.Rzayev oykonimin kanqlı – "kanqlılar" şəklində bərpa olunmasını daha düzgün hesab edir [11, s. 158]. Biz də bu fikirlə razılaşaraq, kənd adının kəngərli türk tayfalarının adı ilə bağlı yarandığını düşünürük.

**İtqıran kəndi.** XIX əsrdə Naxçıvan əyalətinin Məvaziyi Xatun mahalına [14, s. 495], XX əsrin əvvəllərində İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasına aid kənd olmuşdur [10, s. 139]. Kənd adı İ.Şopenin əsərində İt-kran şəklində qeydə alınmışdır. XIX əsrə aid mənbələrdə Köhnə-İtkran, Təzə İtkran şəklindədir. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəfətəri"ndə və 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə [9, s. 17] qeydə alınmışdır. Hazırda Ermənistanda Paşalı (Əzizbəyov, Vayk) rayonunda kənddir [3, s. 166]. 1918-ci ildə kənd erməni təcavüzünə məruz qalmış və kənddə yaşayan azərbaycanlılar qovulmuşdur. 1988-ci ilin noyabr ayında Ermənistan dövləti tərəfindən kəndin bütün sakinləri tarixi-etnik vətənlərindən deportasiya edilmişdir. İndi burada ermənilər yaşayır. Erm. SSR AS RH-nin 3.I.1935-ci il fərmanı ilə adı dəyişdirilib Gülüstan, Ermənistan prezidentinin 19.IV.1991-ci il fərmanı ilə yenidən adı dəyişdirilib Nor Aznaberd qoyulmuşdur [3, s. 166]. Bəzi tədqiqatçılar adın ərazidə baş vermiş hadisə ilə əlaqədar olaraq adlandırıldığını qeyd edirlər [4, s. 73]. Əfsanəyə görə, İran şahı Naxçıvan ətrafındakı kəndlərdən vergi alırmış. O, adamlardan ucqar kəndlərdən birinə xəbər yollayır ki, İran ayğırları Tehranda kişnəyib, onların atları quluna qalıb. Həmin qulunları versinlər. Kənddən bir dəstə adam İrana şahın hüzuruna gedir. Onlar yolda qarşılarına çıxan itləri öldürürlər. Hökmdar bunun səbəbini soruşduqda dəstə başçısı cavab verir ki, canavarlar atlara hücum edəndə itləri nə qədər harayladıqsa, köməyə gəlmədilər. Atların çoxunu qurdlar parçaladı, qalanları da bala saldı. Şah onların qorxmazlığını görüb kəndliləri bağışlayır və kəndin adını İtqıran qoyur [4, s. 215-216]. Bəzi tədqiqatçılar hesab edirlər ki, toponim qıpçaqların et tayfasının adı ilə bağlı yaranmışdır. Kuren/kuran isə türk dillərində "hərbi düşərgə, maldar elin müvəqqəti dayanacaq yeri" deməkdir. Kənd adı "et tayfasının düşərgəsi" mənası ifadə edir [5, s. 271]. Toponim tarixi mənbələrində adı çəkilən itbarak tayfa adında öz əksini tapan və etnonimi kimi işlənən it və qədim türk dilində "kənd yaşayış yeri, meşədə yurd, dəyə, maldarların müvəqqəti dayanacaq yeri" mənasında işlənən kuren//kuran (qıran) sözündən əmələ gəlmişdir. Quruluşca mürəkkəb etnotoponimdir. Sonda onu da qeyd etmək lazımdır ki, kənd indiki Ermənistan ərazisində yerləşsə də, adın etimologiyası təsdiq edir ki, bu ad türk mənşəlidir və türklərə məxsusdur.

**Nəticə.** Naxçıvanın toponimik sistemi Qərbi və Cənubi Azərbaycan ərazilərinin toponimləri ilə yanaşı bir çox türk və qeyri-türk dövlətlərin toponimik sistemi ilə paralellik təşkil etməkdədir. Bu fakt isə dilçilik, tarix və coğrafiya kimi üç mühüm elm sahəsinin vəhdətində meydana gəlmiş toponimikanın sahib olduğu praktik rolun əhəmiyyətini bir daha vurğulayır. Qədim Azərbaycan torpaqlarında qondarma Ermənistan Respublikasının yaradılması mərhələli şəkildə həyata keçirilmiş və həmin siyasətin bir hissəsi kimi işğal olunmuş ərazilərin adları dəyişdirilərək, yaxud təhrif edilərək erməniləşdirilmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, bəhs olunan siyasət iki istiqamətdə aparılmış, həm Azərbaycan SSR ərazisindəki coğrafi adlar, həm də Ermənistan SSR ərazisindəki türk mənşəli coğrafi adlar dəyişdirilərək saxtalaşdırılmışdır. Deməli, biz təkcə Azərbaycan ərazisinin onomastik vahidlərini araşdırmaqla kifayətlənməməli, eyni zamanda indiki Ermənistan ərazisində yerləşən qədim yurd yerlərimizin tarixi adları istiqamətində də tədqiqatlar aparmalıyıq. Belə vahidlər hər bir dilin və həmin dilin daşıyıcısı olan xalqın tarixinin, etnogenezinin, keçdiyi

inkişaf yollarının öyrənilməsində oynadığı müstəsna rol baxımından böyük elmi və siyasi əhəmiyyət daşıyır. Onomastik vahidlərin, o cümlədən, dilin toponimik sisteminin xalqın milli atributu sayılması və etnogenezi kimi qiymətləndirilməsi məhz bununla bağlıdır. Deməli, həm Azərbaycan Respublikası ərazisində yerləşən məntəqə adlarına, həm də işğal altında olan qədim yaşayış məskənlərimizə sadəcə xüsusi adlar kimi baxmaq düzgün deyil. Onlar həm də tariximiz, milli kimliyimiz, etnik mənsubiyyətimiz haqqında geniş məlumatlar əks etdirir. Zaman-zaman onomastik vahidlərimizin, eləcə də toponimik sistemimizin üzləşdiyi saxtalaşdırma və mənfur qonşularımız tərəfindən həyata keçirilən soyqırımı siyasəti həmçinin yuxarıda qeyd olunanlarla bağlıdır. Azərbaycanın milli mənşəli toponimlərinə qarşı törədilmiş soyqırımı dünya tarixində nadir hallardandır. Şübhəsiz, yaşlı, uşaq, qadın ayırmadan əliyalın xalqımıza, tarixi abidələrimizə, milli kimliyi olmayan meşə və başqa coğrafi obyektlərimizə qarşı törədilmiş vəhşiliklər dilimizdən yan ötüşmədi. Rusiyanın dəstəyi ilə həyata keçirilən onomastik vahidlərin erməniləşdirilməsi siyasətinin bir istiqaməti olaraq Türk mənşəli toponimlərin dəyişdirilməsi həyata keçirilmişdir. Qərbi Azərbaycan ərazisində yer adlarının dəyişdirilməsi siyasətinin nəticəsi kimi qədim adlar passiv toponimik fonda daxil edilsə belə xalqın yaddaşından silinməmişdir, lakin Şimali Azərbaycanda qısa müddət sonra həmin ərazilərin ilkin adları özlərinə qaytarılmışdır.

Qərbi Azərbaycan ərazisində müxtəlif tayfalara məxsus olan oykonimləri müəyyənləşdirmək üçün müraciət etdiyimiz qədim mənbələr bu ərazidə yaşamış tayfaların, qəbilələrin bütövlükdə Azərbaycan türkləri olduğunu, eləcədə bu toponimlərin həmin tayfaların dil vahidləri hesabına yarandığını sübut edir. Bu vahidlərinin bir çoxu bizim qədim dövrlərlə səsləşir ki, bu da dilimizin əski dövrlərinin tədqiqi istiqamətində xüsusi əhəmiyyət daşıyır. Sonda belə nəticəyə gəlirik ki, Qərbi Azərbaycan ərazisində müxtəlif tayfalara məxsus olan etnonim səciyyəli oykonimlər də milli mənşəli adlardır və bu ərazilərin tarixini, qədimliyini, milliliyini özündə əks etdirir.

## ƏDƏBİYYAT

1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti: 2 cilddə. I c., Bakı: Şərq-Qərb, 2007, 304 s.
2. BağırovA. N. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 333 s.
3. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm, 2002, 346 s.
4. Baxşıyeva T.L. Qafqazın türk mənşəli toponimləri. Bakı: Avropa, 2010, 256 s.
5. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oguz eli, 1998, 453 s.
6. Budaqov B., Qeybullayev Q. Naxçıvan diyarının yer yaddaşı. Bakı: Nafta-press, 2004, 120 s.
7. Ганн К.Ф. Опыт объяснения Кавказских географических названий / СМОМПК. Вып. 40, Тифлис, 1909, с. 1-64.
8. Мурзаев Э.М. Словарь народных географических терминов. Москва: Мысль, 1984, 653 с.
9. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Sabah, 1997, 336 s.
10. Пагирев Д.Д. Алфавитный указатель к пятиверстной карте Кавказского края. Тифлис: Типография К.П.Казловского, 1913, 530 с.
11. Rzayev F.H. Qədim Şərur oykonimlərinin mənşəyi, Bakı: Kitab aləmi, 2006, 228 s.
12. Rzayev F. Naxçıvan əhalisinin etnogenizi tarixindən: 2 cilddə. IIc., Bakı: ADPU, 2017, 589 s.
13. Смирнов Н.К. Материалы по истории и этнографии Нахичеванского края (Тифлис, 1934 г). Баку: Озан, 1999, 156 с.
14. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, 1852, 644 с.

***AMEA NaxçıvanBölməsi***
***E-mail: CemileNihatMeherremova@gmail***

**Jamila Maharramova**

## ETYMOLOGY OF ETHNOOIKONYMS OF WESTERN AZERBAIJAN (aralyg, khanlyglar, hors, itgyran)

The article describes the toponyms that are part of the territory of Western Azerbaijan, associated with the names of tribes, and the ethnolinguistic analysis of these toponyms. Toponyms that arose in connection with the names of tribes are considered ethnotoponyms. In the formation of toponyms of an ethnonymic nature, the main role is played by ancient Turkic tribal, generic, folk, and clan names. The existence of these toponyms, especially oikonyms closely associated with the names of tribes of Turkic origin that existed on the territory, was studied in ancient sources, and these facts are reflected in the article. Here, an ethnolinguistic analysis of several toponyms of an ethnonymic nature (Aralyg, Khanlyglar, Khors, Itgyran) was carried out, associated with the names of tribes of Turkic origin that existed on the territory of Western Azerbaijan.

**Keywords:** *Western Azerbaijan, ethno-oikonym, Aralyk, Khanlyglar, Khors, Itgyran.*

**Джамиля Магеррамова**

## ЭТИМОЛОГИЯ ЭТНООЙКОНИМОВ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА (Аралыг, Ханлыглар, Хорс, Итгыран)

В статье рассказывается о топонимах, входящих в состав территории Западного Азербайджана, связанных с названиями племен, и этнолингвистическом анализе этих топонимов. Топонимы, возникшие в связи с названиями племен, считаются этнотопонимами. В образовании топонимов этнонимического характера основную роль играют древнетюркские племенные, родовые, народные, клановые названия. Существование этих топонимов, особенно ойконимов, тесно связанных с существовавшими на территории названиями племен тюркского происхождения, было исследовано в древних источниках, и эти факты нашли отражение в статье. Здесь был проведен этнолингвистический анализ нескольких топонимов этнонимического характера (Аралык, Ханлыглар, Хорс, Итгыран), связанных с названиями племен тюркского происхождения, существовавших на территории Западного Азербайджана.

**Ключевые слова:** *Западный Азербайджан, этноойконим, Аралык, Ханлыглар, Хорс, Итгыран.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxiloma tarixi: İlkin variant 27.06.2025**
**Son varian 29.07.2025**